

# Proaktiv enerji siyasəti ölkəmizi qlobal aktora çevirir

***Azərbaycan dünyanın, xüsusilə də Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından biridir. Malik olduğumuz təbii resurslardan səmərəli istifadə edən, qlobal enerji layihələrinin iştirakçısı və təşəbbüsçüsü olan ölkəmiz Avropanın enerji diversifikasiyasında, Mərkəzi Asiyadan Avropaya karbohidrogen ehtiyatlarının daşınmasında tranzit ölkə rolunu oynayır. Qlobal enerji bazarlarının transformasiyasının sürətlə davam etdiyi bir dövrdə gələcəyin enerji sistemini qurmaq Azərbaycanın yaxın perspektivdə imkanlarını xeyli artıracaq, ölkəmizin əzəmətini bütün dünyaya nümayiş etdirəcək. Bu baxımdan, Prezident İlham Əliyevin açılış nitqi ilə öz işinə başlayan Bakı Enerji Həftəsi bu sahədə yeni innovasiyalar üçün açar rolunu oynayacaq.***

Dünyada proaktiv siyasəti ilə seçilən Azərbaycan enerji təhlükəsizliyi məsələsindəki riskləri aradan qaldırmaqla əldə olunan inkişafı sürətləndirir, enerji sektorunda keyfiyyətli mühit formalaşdırmağa çalışır. Məhz iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil & Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin rəsmi açılışı ilə bağlı Prezidentə ünvanlanan təbrik məktubları, tədbirdə dünyanın aparıcı ölkələrinin və şirkətlərinin yüksək səviyyəli təmsilçilərinin iştirakı Azərbaycanın enerji sektorunda həyata keçirdiyi qlobal layihələrə verilən dəstəyin əyani təzahürüdür. Lakin bu gün bu mərhələyə asan yolla çatmamışıq. Ölkə başçımız tədbirin açılışında da bu məsələyə toxunub: "1993-cü ilin vətəndaş müharibəsi ölkəni uçuruma aparırdı. Azərbaycan çox riskli ölkə hesab olunurdu. Söhbət təkcə Birinci Qarabağ müharibəsi və işğaldan yox, həm də daxili münaqişələrdən gedir. Müstəqilliyin ilk illəri böyük bir enerji böhranı ilə müşayiət olundu. Həmin dövrdə yaşananlara iqtisadi çətinlikləri, min faiz səviyyəsində olan inflyasiyanı, sənayemizin durğunluğunu və enerji resurslarının qıtlığını əlavə etmək olar. Elektrik enerjisi və təbii qaz qıtlığı var idi. 1993-cü il dönüş nöqtəsi oldu. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin oktyabrında Prezident seçilməsi ölkənin tarixində yeni səhifə açdı və irimiqyaslı iqtisadi islahatlara, yeni demokratik Konstitusiyanın qəbul edilməsinə, senzuranın ləğvinə və enerji sektoruna investisiyaların cəlbinə şərait yaratdı. Birinci Xəzər Neft və Qaz Sərgisinin keçirilməsindən bir neçə ay sonra 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu da ölkənin transformasiyasında dönüş nöqtəsi oldu". Bəli, ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən qısa müddət sonra Azərbaycanın dünyanın enerji ailəsinə daxil olması proaktiv siyasətin bir hissəsi idi. Məhz 30 il əvvəl atılan müdrik addım bu gün Azərbaycanı enerji sektorunda əhəmiyyətli əməkdaşlıq üçün mühüm platformaya, etibarlı haba çevirib. Tədbirin keçirilməsi münasibətilə ABŞ prezidenti Cozef Bayden də daxil olmaqla dünyanın nəhəng ölkələrinin Azərbaycana təbrik məktubu genişmiqyaslı işlərin öz bəhrəsini verdiyini göstərir.

Bakı Enerji Həftəsi ilk dəfə 1994-cü ildə keçirilib və o vaxtdan bəri Azərbaycanın enerji sektoruna birbaşa xarici sərmayənin cəlb edilməsində mühüm rola malik olub. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, tədbir enerji siyasətinin bütün seqmentlərini - neft, qaz, emal, ixrac və əlbəttə, "yaşıl enerji" siyasətini əhatə edir. 37 ölkədən 300-dək şirkətin iştirak etdiyi Bakı Enerji Həftəsinin gündəliyinin də olduqca zəngin olması və aktual məsələləri özündə ehtiva etməsi diqqətəlayiqdir.

Builki tədbir həm təsis edilməsinin 30 illiyi, həm də COP29-a ev sahibliyimiz baxımından rəmzi məna daşıyır. Bakı Enerji Həftəsi çərçivəsində ötən gün öz işinə başlayan Bakı Enerji Forumunun "Yaşıl dünya naminə. COP29 strateji inkişaf yolları" adlı xüsusi sessiyası COP-a hazırlıq kimi də qiymətləndirilə bilər. Azərbaycanın COP29-a ev sahibliyi etməsi və qlobal müstəvidə beynəlxalq təşkilatlarla birgə əməkdaşlıq və layihələr həyata keçirməsi, yeni dünya nizamında bölgənin nüfuzunu daha da gücləndirir. COP29-un Azərbaycanda keçirilməsinə böyük dəstək verənlərdən biri də heç şübhəsiz ki, BƏƏ-dir. Ölkəmizdən əvvəl Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyasına ev sahibliyi edən Birləşmiş Ərəb Əmirliyi müasir dövrdə dünyanı dərindən narahat edən ekoloji problemlərin həllində öncül dövlətə çevrilib. Məhz bu baxımdan, cənab İlham Əliyev vurğulayıb ki, BƏƏ-nin Azərbaycana ötürdüyü miras olduqca dəyərlidir. Həm COP29 çərçivəsində, həm də enerji sahəsində dost ölkə ilə qurulan əməkdaşlıq ölkəmizin potensialını əhəmiyyətli dərəcədə artırır. Məhz Bakı Enerji Həftəsi çərçivəsində ölkə başçımız Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin stendi ilə tanışlıq zamanı bildirdi ki, "Masdar" ölkənin təmiz enerji çempionu və qlobal davamlılıq problemlərini həll etmək üçün bərpaolunan enerji və yaşıl hidrogen texnologiyalarının inkişafını və tətbiqini genişləndirərək dünyada öz sahəsinin ən böyük şirkətlərindən biridir. 2006-cı ildə yaradılan "Masdar" bu gün 40-dan çox ölkədə fəaliyyət göstərir və onlara təmiz enerji məqsədlərinə nail olmaqda və davamlı inkişaf etməkdə kömək edir. Şirkət Azərbaycanda ümumi gücü 10 qiqavatadək olan bərpaolunan enerji mənbələri layihələri üzrə müqavilələr imzalayıb. Hazırda gücü 230 meqavat olan Qaradağ Günəş Elektrik Stansiyasının inşası layihəsini icra edir. "Masdar" ən azı 100 qiqavatlıq bərpaolunan enerji portfelini hədəfləyir. Dövlət başçısı da çıxışında bildirib ki, hazırda iki layihə üzərində işlənilir ki, onlardan biri inşaat mərhələsindədir, digərinin tikintisi isə tezliklə başlanacaq: "Bununla da Azərbaycanın bərpaolunan enerji potensialı 2 qiqavata yaxın olacaqdır. Buraya təkcə günəş və külək enerjisi daxildir. Qarabağ və Şərqi Zəngəzurda hidroelektrik stansiyalarla bağlı gördüyümüz işləri əlavə etsək görərik ki, 2027-ci elədək 2 qiqavat həcmində bərpaolunan enerjinin əldə edilməsi tamamilə real hədəfdir. Bir daha təkrar edirəm ki, bu, sadəcə, başlanğıcdır".




Digər tərəfdən, tədbirin açılış günündə BƏƏ-dən olan "Masdar" şirkəti tərəfindən inşa ediləcək üç günəş və külək enerjisi elektrik stansiyalarının təməlqoyma mərasiminin keçirilməsi ilə yadda qalıb. İndiyə qədər şirkət 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyasını istifadəyə verib. Bu gün isə daha 1 qiqavat enerji həcmi əlavə edilir. Biləsuvar və Neftçala rayonlarında Günəş elektrik stansiyaları, Abşeron-Qaradağ külək layihəsi ilə birlikdə Azərbaycanın artmaqda olan enerji ehtiyaclarının təmin edilməsi məqsədilə 1 qiqavat təmiz enerji hasil edəcəyi nəzərdə tutulur. Enerji sahəsində BƏƏ ilə birlikdə etibarlı əməkdaşlıq ölkəmizin bu sahədə mövqeyini xeyli möhkəmləndirir.

Ölkə başçısı COP28, COP29 və COP30-un təşkilatçıları BƏƏ, Azərbaycan və Braziliya ilə birlikdə "Troyka"nın təsis edildiyini bildirdi. Bu isə öz növbəsində atılmış növbəti proaktiv siyasətin göstəricisidir və sözügedən ölkələrin bu məsələdə kompleks yanaşma ortaya qoyduğumuzdan xəbər verir. Həmçinin Prezident İlham Əliyev qeyd edib ki, Qoşulmama Hərəkatının keçmiş sədri qismində biz 120 ölkə ilə birlikdə bu təsisat və Avropa İttifaqı arasında körpülərin qurulmasına çalışırıq. Avropa İttifaqına 10 üzv dövləti ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb. Biz hazırda inkişafda olan kiçik ada dövlətləri ilə fəal işləyirik. Onların dəstəklənməsi məqsədilə xüsusi fondun yaradılmasını planlaşdırırıq.

Bu gün Azərbaycan enerji strategiyasının önəmli komponentinə çevrilən Bakı Enerji Həftəsi bir daha göstərir ki, ölkəmiz enerji sektorunda qlobal oyunçulardan biridir. Əbəs yerə deyil ki, Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı kimi tanıyır. Faktiki olaraq, ölkəmiz bu gün dünyanın 8 ölkəsinə qaz ixrac edir ki, onlardan da 6-sı Avropada yerləşir. Bu baxımdan, sözügedən tədbir Avropanın Azərbaycan təbii qazına ehtiyacı olan bir neçə əlavə ölkə ilə danışıqların aktiv fazasının aparılması üçün də olduqca mühümdür.

Etibarlı dialoq mühitini daha da inkişaf etdirən Bakı Enerji Həftəsi həm də daha dayanıqlı enerji gələcəyini təmin etməyə kömək edir. Bu baxımdan, tədbir dünya mediasının da diqqət mərkəzindədir. Birləşmiş Ərəb Əmirliklərinin "Emirates" rəsmi informasiya agentliyi, "24ae.", "Əl İttihad", "Şarjah 24", "Mediaoffice. Abu-Dabi", "Əl Xalic", "uae.barq" qəzet və portalları, habelə "CNN arabic", "Abu Dabi1" telekanalları, Səudiyyə Ərəbistanının "Saudigulffprojetcts" nəşri Bakı Enerji Həftəsinin keçirilməsindən və onun enerji təhlükəsizliyinə verdiyi töhfələrdən söz açıblar. Həmçinin Qazaxıstanın "Kazinform" agentliyi, Çinin "Siamnews", "Chinamoneynerqork" portalları, Avstraliyanın AAP informasiya agentliyi, Tailandın "Thailand business" nəşri, Almaniyanın "Finanznachritchen", Kanadanın "Newswire", İtaliyanın "İnarmazione", İngiltərənin "Morningstar", Tayvanın "Taiwannews" elektron qəzetləri bu tədbir haqqında geniş məqalələr dərc ediblər.



Yekunda onu qeyd etmək lazımdır ki, cənab İlham Əliyevin Bakı Enerji Həftəsində iştirakı və çıxışı tədbirin yüksək statusunu bir daha təsdiqləyir. Dünyanın enerji güclərinin bir araya gəlməsi ilə bu sahədə qlobal böhranların qarşısının alınması üçün proaktiv işlər görülür. Bu gün yekunlaşacaq Bakı Enerji Həftəsi Azərbaycanın uğur hekayəsinin növbəti parlaq səhifəsinə çevrilir.

**Tacir SADIQOV,**
**"Respublika".**